**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**ŞUŞA HUMANİTAR KOLLECİ**



**AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ**

# Nağara ilə fortepiano üçün ansambl işləyəni və köçürəni Təhmasib Hüseyn oğlu Məmmədov Cəfərli Hüseyn Ədalət oğlu

## I CİLD

*İncəsənət məktəbləri, musiqi kolleci, bakalavr və magstr tələbələri üçün*

# *DƏRS VƏSAİTİ*

***Klavir***

**Bakı – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**ŞUŞA HUMANİTAR KOLLECİ**

***AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ***

**Nağara ilə fortepiano üçün ansambl işləyəni**
**və köçürəni Təhmasib Hüseyn oğlu Məmmədov**
**Cəfərli Hüseyn Ədalət oğlu**

# I CİLD

*İncəsənət məktəbləri, musiqi kolleci, bakalavr və magstr tələbələri üçün*

*dərs vəsait*

***Klavir***

*Sərəncam*

**Bakı-2022**

**Tərtibçilər:** **ADMİU-nun“Xalq çalğı alətləri ifaçılığı” kafedrasının nağara ixtası üzrə baş müəllimi Təhmasib Hüseyn oğlu Məmmədov və Şuşa Humanitar kollecin nağara müəllimi Cəfərli Hüseyn Ədalət oğlu**

**Redaktoru:** **Umud Ağasif oğlu İbrahimov ADMİU-nun “Xalq çalğı alətləri ifaçılığı” kafedrasının kafedra müdiri, *Əməkdar müəllim, dosent***

**Rəyçilər:** **Vamiq Məmmədəli oğlu Məmmədəliyev**
*ADMİU-nin “Xalq çalğı alətləri Ifaçılığı kafedırasının professoru Xalq artisti*

**Nəsib Səttar oğlu məhərrəmov**
*Şuşa humanitar kollecin müəllimi, Əməktar mədəniyyət işçisi*

**Kamran Seyran oğlu Kərimov**
*AMK-nın nağara müəllimi Əməkdar artisti*

## Giriş

Azərbaycanda zərb çalğı alətlərinin kökləri çox-çox qədimlərə, ibtidai dövrlərə gedib çıxır. Səs mənbəyi dəridən alınan zərb alətlərinin Azərbaycanda çox qədim köklər var. Eradan əvvəl VI-V əsrə aid edilən səs mənbəyi dəridən alınan zərb alətlərinin ümumən 7-8 min il tarixi var. Bu fakt arxeoloji tarixi mənbələrə istinadən təsdiqini tapır. Ümumilikdə, Azərbaycanda musiqi mədəniyyətinin, o cümlədən çalğı alətlərinin ilkin nümunələri eramızdan əvvəl XVIII-XV minilliklərə aid edilir. Bu dövrlərdə insanlar müəyyən vasitələrlə ritmlər yaradıblar.

Azərbaycanın ilk yazılı nümunələrindən sayılan, “Dədə qorqud” dastanında zərb ailətləri haqqında məlumat vardır.Orada təsvir olunduğu kimi, oğuzlar döyüşə zərb alətlərinin xüsusi işarələri vasitəsilə hazırlaşırdılar.Yazılı mənbələrdən məlum olduğu kimi zərb alətlərindən təbil IX əsrdə Azərbaycanda geniş yayılmışdır. Hazırda xalq çalğı alətləri ansambıllarında istifadə olunan zərb təbili xatırladir. Nağaranında həmin təbildən yaranması ehtimal olunur. Bir halda ki,təbil öz formasını zərb alətində saxlamışdır,deməli nağara da müəyyən qədər təkmilləşmişdir.

Azərbaycan və xarici ölkə bəstəkarlarının bir çox əsərləri nota köçürülmüşdür. Təqdirəlayiq haldır ki, XX-əsrin ortalarından nağaranın tədrisi üçün də dərs vəsaitləri, nota köçürülmüş əsərlər çap olunmağa başlamışdır. 1988-ci ildə ustad müəllim Səlim Quliyev metodik tövsiyə, 2000-ci ildə Ağası Məmmədov “Nağara məktəbi”dərslik kitabı, 2012-ci ildə Təhmasib Məmmədov ”Duet, trio, kvartet ilə fortepiano üçün məşğələvə işləmələr” dərs vəsaiti, 2015-ci ildə “Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri”, 2017-ci ildə”Nağara ixtisası üzrə məşğələ, ansambl və nağara ilə fortepiano üçün işləmələr “ dərs vəsaiti, 2021-ci ildə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən nəşr olunmuş nağara ixtisası üzrə ”Ritmlər” adlı dərs vəsaitləri çap olunub tələbələrin istifadəsinə verilmişdir. Bütün bu metodik tövsiyə və dərs vəsaitləri Azərbaycan nağarasının imkanlarının xalq musiqisiylə yanaşı klassik musiqidə də açılmasına bir növ yardımçı olmuşdur. Hal hazırda Azərbaycan nağarasını xalq çalğı alətləri ansambllarının, orkestr və hətta simfonik orkestrlərin də tərkibində görürük. Azərbaycan nağarası üçün nota köçürülən nağara ilə fortepiano üçün ansambl I cild dərs vəsaitidə Azərbaycan Respublikasının incəsənət məktəbləri, kollecləri və ali tədris müəssisələrində təhsil alan, hətta bir çox musiqi təmayüllü ali məktəblərdə də tədris olunmaq üçün nəzərdə tutulmuşdur.

# ÖN SÖZ

Nağara - Azərbaycan xalqının ən qədim musiqi alətlərindən biridir. Tarixən rəqs ansamblında, xalq çalğı alətləri ansamblında və xalq çalğı alətləri orkestrlərin tərkibində aparıcı alət kimi istifadə edilib və bu gün də solo ritm sənətinin inkişafında müstəsna rol oynayır.

Xalqımızın həyatı və musiqi mədəniyyətində daima özünə yer alan zərb alətləri qrupuna daxil olan alətlərdən biri də nağara alətidir. Bu alət ölkəmizin musiqi həyatın da ali tədris ocaqları, kollecləri, incəsənət və uşaq musiqi məktəbləri, tədris olunan xalq çalğı alətləri orkestri və ansamblları tərkibində geniş istifadə edilir. Onu da xatırladaq ki, nağara 1931-ci ildən Üzeyir Hacıbəylinin yaratdığı notlu xalq çalğı alətləri orkestrinin tərkibinə həm solo həm də instrumental alət olaraq daxil olub hazırkı dövrümüzdə də İncəsənət uşaq musiqi məktəbləri, və kolleclərdə ali tədris ocaqlarında ixtisas fənni kimi tədris olunur.

Uzun illərdən bəri yerli bəstəkarların əsərləri müxtəlif alətlər üçün nota köçürülmüş dərs vəsaitləri şəklində hazırlanır. Azərbaycan bəstəkarlarının nağara aləti üçün də işləmələrinin dərs vəsaiti şəklində çap olunmasına bir zərurət varidi. Dərs vəsaitinə nağara aləti üçün işlənilmiş bir sıra Azərbaycan bəstəkarlarının həm iri, həm də kiçik həcmli əsərləri daxildir. Bu dərs vəsaitində ansambl üçün müxtəlif xarakterli duetlər verilmişdir. Birgə ifa, ansambl ifaçılığı qədim zamanlardan mövcuddur. “Ansambl” Fransız sözü olub, “bir yerdə” deməkdir. Iki və daha çox alətin birləşməsində yaranır. Məcmuədə verilən əsərlər iki və ya üç nağara üçün köçürülmüşdür. Gənc ifaçıların ansambl ifaçılığı üçün tərtib edilən əsərlər müəllimin məqsədi yeni fəaliyyətə başlayan gənc musiqiçilərə birgə ifa etmək təcrübəsini verməkdir. Kollektiv ifa çox mürəkkəb ifaçılıq texnikası ilə əlaqədardır. Ansamblda musiqiçilər solo ifaçılığında rast gəlinməyən çətinliklərlə qarşılaşırlar. Ansambl ifaçılığında hər şeyi ümumilik və bərabərlik həll edir.Bu, müxtəlif ifaçıların nöqsansız ifası əsasında yaranır.

Dərs vəsaiti, incəsənət və uşaq musiqi məktəbləri, musiqi kollecləri və ali məktəblərdə tədris ocaqlarında istifadə olunmaq üçün sadə əsərlərdən başlayaraq virtuoz ifaçılığadək olan dövrü əhatə edir. Hesab edirəm ki, zərb alətləri ifaçılığının həm milli, həm də klassik əsərlərinin ifaçılıq zamanı artıq çatmışdır.

İncəsənət və uşaq musiqi məktəblərində, Ali və orta ixtisas musiqi məktəblərində nağara ixtisası üzrə təhsil alan tələbələrin başqa xalqların musiqi yaradıcılığına daha dəqiq desək, xarici bəstəkarların əsərlərinə marağı daha da çoxalmaqdadır.

Son dövrlərdə dövlətimizin qayğısı nəticəsində milli ifaçılıq sənətinə, o cümlədən nağara ifaçılıq sənətinə gənclərimizin marağı daha da artmışdır. Ona görə də nağara alətində çalmağı geniş-əhatəli öyrənmək üçün xüsüsi dərs vəsaitlərinin artırılmağına böyük ehtiyac duyulur. Bunları nəzərə alaraq təqdim etdiyimiz

nağara ilə fortepiano üçün ansambl I cild dərs vəsaiti hesab edirəm ki, ıncəsənət məktəbləri kollecləri və ali tədris müəssisələrində təhsil alan, tələbələt üçün lazımlı, tədris-metodiki bir vəsaitdir.

Dərs vəsaitində verilən təlimləri şərti olaraq üç hissəyə bölmək olar. Giriş hissə də vəsaitin məramı və məqsədi haqqında bilgilər verilir, müəllimin məqsəd və vəzifələrindən söhbət açıldıqdan sonra öz təcrübəmizə əsaslanaraq bir sıra tövsiyələri öyrənənlərin nəzərinə çatdırırıq.

Ifaçıdan tələb olunan amillər:

1. Vahidlik, ştrixlərin (zil,bəm ,orta,qıraq, alt,üst əl şapalaqlarin, alt,üst əl çırtmaların və çırtma əvəzi şapalaqların ifasına əməl etməli) əsas ritmin aparılması, xarakterin göstərilməsi və ifa tərzi.
2. Yalnız öz ifa mətnini deyil, tərəf müqabilinin də mətnini bilməlidir.Ansambl ifaçılığında tərəf müqabilini dinləmək, onunla dialoq aparmaq bacarığı olduqca vacibdir.

Alətə məxsus olan nəzəri hissədə nağaraya aid olan şərti işarə-terminlər haqqında, onların növləri və çalğı qaydaları haqqında məlumat verilməklə, lazımi tövsiyələr də verilir. Onu da nəzərə çatdıraq ki, vəsaitdə ardıcıllaşdırılan musiqi nümunələrində, nağara partiyasında zəngin ritmik çalarlardan, xırdalıqlardan, polimetirik üsullardan istifadə edilib. Bəstəkarların yaradıcılıq üslubları, vəzn-ritmik xüsusiyyətləri nəzərə alınaraq nağara partiyaları ilə bir vəhdət təşkil edir.

Dərs vəsaitində əsas yeniliklərdən biri nağara ılə fortepiano üçün ışlənmiş əsərlər, müxtəlif xarakterli və texniki imkanların rəngarəng növlərinə aid duetlər, triolar verilmişdir. Bunlar tələbələrin birlikdə çalmaq, bir birlərini eşitmək vərdiş lərinə böyük təsir göstərəcək. Dərslikdə verilən demək olar ki, ştrixlərin əksəriyyəti, melizm və dinamik işarələr bu alətin ifasında mümkündür. Onu qeyd etmək istəyirik ki, dinamik işarələri, alt, üst əl şapalaqları, alt, üst əl çırtmaları notlar üzərində işlənmiş, bununla az da olsa tələbəni məlumatlandırmağa çalışmışıq. Şagirdləri ansambl ifasına alışdırmaq nöqteyi-nəzərindən dərs vəsaitində göstərilən duetlərdən istifadə etmək məqsədəuyğundur.

Əsərin ifası zamanı ixtisas müəllimi tərəfindən şagird və tələbənin alt, üst əlinin düzgün seçilməsi, zil, bəm səsi bir-birindən ayırması, şapalaqdan forşlaq və çırtmaya keçməsi ifaçının əsas texniki elementlərdən biri olmaqla bərabər, eyni zamanda, musiqinin ifadəli olması üçün əsas vasitədir. Buna görə də, dərs vəsaitində alt, üst əl şapalaqlarının, çırtma əvəzi alt əlin, alt, üst əl çırtma işarələrinin düzgün işlədilməsi, alt və üst əl şapalağının dəriyə normal vəziyyətdə vurulması kimi cəhətlərə böyük əhəmiyyət verilmişdir. Müəlliflər belə hesab edirlər ki, təqdim olunan dərs vəsaiti tələbələrdə notu üzündən oxumaq bacarığını inkişaf etdirəcək, bu da gələcəkdə, tələbələrin texniki inkişafında, tədris prosesində öz bəhrəsini verəcəkdir.

Təqdim olunan bu dərs vəsaitndə görkəmli Azərbaycan bəstəkarlarının (Q.Qarayev, A.Məlikov, H.Rzayev, A.Zeynallı, Ə.Abbasov, Cahangir Cahangirov, S.Ələsgərov, S.Rüstəmov) əsərləri Azərbaycan nağarası üçün, onun xarakterik, ritmi nəzərə alınmaqla işlənmişdir.

**Əşrəf Cəlal oğlu Abbasov "Aşıqsayağı"**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş məşhur sənətkarlardan biri də görkəmli bəstəkarımız Əşrəf Abbasovdur. Bəstəkar, musiqi şünas, pedaqoq, musiqi-ictimai xadim, professor.Sənətşünaslıq namizədi (1952), Azərbaycanın Əməkdar İncəsənət xadimi (1963), Azərbaycanın Xalq Artisti (1968). Bəstəkar, yaradıcılığa ötən əsrin 30-cu illərində tarzən kimi başlamış, Azərbaycan musiqisinin bir çox janrlarında qələmini sınamış bəstəkar, musiqi mizin nəzəri problemlərini araşdırmış tədqiqatçı alim, pedaqoq kimi fəaliyyət göstərmişdir.

Əşrəf Abbasov zəngin yaradıcılıq irsi olan bir sənətkar idi. O, "Qaraca qız" baletinin, "Səndən mənə yar olmaz", "Dağlar qoynunda", "Həyətim mənim, musiqili komediyalarının, simfonik orkestr üçün "Konsertino", "Şuşa", "Gələcək gün", "Dramatik poema" kimi əsərlərin, "Heyran olmuşam", "Gözəl yar", "Qurban olduğum", "Oxu bülbülüm", "Qarabağın qızları", "Ceyranım gəl" və s. məşhur mahnı və romansların müəllifidir.Bəstəkar ilk uşaq baletinin müəllifidir. Görkəmli yazıçı Süleyman Sani Axundovun eyni adlı hekayəsi əsasında "Qaraca qız" baleti 1965- ci ildə tamaşaya qoyulmuşdur. O,fortepiano və orkestr üçün konsertin, simfonik orkestr üçün "Konsertino"nun,"Şuşa", "Gələcəkgün", "Drammatik" simfo nik poemalarının,"Səndən mənə yar olmaz", "Dağlar qoynunda" operettalarının, bir çox instrumental əsərlərin, xor mahnı və romansların müəllifidir.

**Nümunə№1**

**"Aşıqsayağı"**

Bəstəkarın "Aşıqsayağı"," Rəqs","Aşıq mahnısı" əsərləri Azərbaycan nağarası üçün köçürülmüş dərs vəsaitində əsərlər sırasına daxil edilmişdir. "Aşıqsayağı" əsəri 2/4 sadə ölçüdə, "Canlı" tempdə, gumrah marş xarakterli ritm ilə ifa olunur. "Aşıqsayağı" əsəri nağara və iki nağara üçün işlənmişdir. Əsərin əvvəlində birinci nağara orta (bəm) şapalaqla, ikinci nağara isə qıraq (zil) şapalaqla bir-biri ilə və fortepiano ilə birlikdə sual cavabla ifa olunur.Əsərin ifa tərzi, xarakteri, üslubu saxlamaq üçün orta, qiraq, zil,bəm əl şapalaqlarin düzgün, alt, üst əl çırtmaların yerli yerində istifadə etməkdir. Rəqs janrına xas olan əsərdə zərbələr və termolalar

yazıldığı kimi çalınmalıdır. On altılıq notlar alt, üst əl çırtmaları ilə çalınması məqsədəuyğundur. Belə ştrixlər notların üstündə yazılmışdır.

**Nümunə№1**




**Nümunə№2**

**”Rəqs”**

Bəstəkarın”Rəqs”əsəri nağara və ıki nağara aləti üçün işlənmişdir.12/16 mürəkkəb ölçüdə qaytağı rıtmdə ifa olunur.Əsərin əvvəlində birinci nağara və fortepıano dörd xanə ifa etdikdən sonra, ikinci nağara ifaya qoşulur və birlikdə on səkkiz xanə solo ifa edirlər. Sonradan fortepiano ifaya qoşulur. İki nağara üçün işlənmiş bu rəqs nağaraların bir-biri və fortepiano ilə birlikdə sual cavabla dialoq baş verir. Əsərin əvvəlində termola ilə ifa olunan vurğulu nöqtəli səkkizlik notları, ritmə elə oturd- maq lazımdır ki,nağara və fortepıano ansamblı alınsın. Ansamblın alınması üçün əsərin metroritmi dəqiqliyindən, notların üzərində qoyulan ştrixlərdən, alt və üst əl şapalaqlardan, vurğulardan və tremoladan düzgün istifadə etmək lazımdır. Əsas ifa xüsusiyyəti ondadır ki, tremola qıraq şapalağın vurğusundan istifadə olunur yəni tremolaya alt əlin zil zərbəsi ilə vurulur.

**Nümunə№2**



**Nümunə№3**

**"Aşıq mahnısı"**

Bəstəkarın fortepiano üçün işləmiş"Aşıq mahnısı" əsəri 4/2 sadə ölçüdə, "Canlı" Moderato tempində, gumrah xarakterdə yazılmışdır. Nağara və ıki nağara aləti üçün işlənmişdir."Aşıq mahnısı" adından da bəlli olduğu kimi, mahnı aşıq intonasiyaları əsasındasadə yaddaqalan melodiya vasitəsi ilə təqdim olunmuşdur. "Aşıq mahnısı" sadə melodik dili və ritmi ilə aşıq mahnılarına səciyyəvi xüsusiyyətə malik, ritm baxımdan yazılan pyesdir. "Aşıq mahnısı" əvvəldən səkkiz xanə iki nağara sual cavabla, orta, qıraq (bəm, zil) şapalaqla solo ilə başlayır, sonradan fortepiano ifaya qoşulur. Əsərin 33-cü xanəsindən başlanan ritm yəni bir xanə içərisində sanki nağara ilə fortepiano arasında dialoq baş verir.

**Nümunə№3**



**Nümunə№4**

37-ci xanədə növbə fortepianoya keçir və 5 xanəni əhatə edir. Sonra ritmi nağara lar davam etdirir və yenidən dialoq baş verir. Əsərdə intonasiyanın dəqiq olmasına, səs rəvanlığına, ritm sabitliyinə ciddi diqqət verilməlidir.

**Nümunə№4**



**Nümunə№5**

**Cahangir Şirgəst oğlu Cahangirov "Yallı"**

Azərbaycan mədəniyyətinin parlaq simalarından biri, görkəmli bəstəkar, Xalq artisti, professor, dirijor və ictimai xadim Cahangir Cahangirovun yaradıcılığı öz çoxşaxəliyi ilə seçilir. Bəstəkarın xor və instrumental musiqiləri,operaları, bir-birindən gözəl mahnıları var. Bunlara misal olaraq bəstəkarın xor musiqisi sahəsində maraqlı əsərlərindən "Arazın o tayında" poemasını, 12 hissədən ibarət "Dostluq mahnısı" kompozisiyasını, "Azad" və "Xanəndənin taleyi" operalarının xornömrələrini, "Füzuli", "Nəsimi","AşıqAlı "kantatalarını, "Sabir" oratoriyasını, Süleyman Ələsgərovla birlikdə yazdığı odanı, onlarca xor miniatürlərini göstər mək olar. Sadalanan əsərlərdən xüsusilə "Füzuli" kantatası Cahangir Cahangirova böyük şöhrət gətirmişdir.

Azərbaycan xalq musiqisinin, musiqi folklorumuzun çox geniş yayılmış və qədim tarixə malik olan janrlarından biri də rəqslərdir. Rəqs sənətinin çoxəsrlik tarixə malik olması faktı xalq rəqslərimizin əsas qollarından biri sayılan "yallı"nın yaranması ilə bağlıdır. Azərbaycanda "yallı"nın dərin kökləri haqqında bir çox mənbələr, arxeoloji qazıntılar, tarixi ərazilər bizə mühüm və maraqlı məlumatlar açıqlayır. Ordubadın Tivi və Nəsirvazlı kəndlərinin şimal-şərqində yerləşən, dəniz səviyyəsindən 3907m yüksəklikdə qərarlaşan Gəmiqaya dağındakı qayaüstü təsvirlər isə ilk dəfə 1960-cı illərdə qeydə alınmışdır. Buradan çoxlu sayda "qaz-ma", "cızma", "döymə" üsulu ilə icra edilmiş (çəkilmiş) rəsmlər və piktoqrafik yazı nümunələri tapılmışdır. Qədim Midiya ərazisində aşkar edilən, boyalı qablar üzərində kişilərlə yanaşı qadınların da rəqs etdikləri təsvirlər, tək və kollektiv surət də oynanılan rəqs şəkilləri çəkilmişdir[7]

Yallılar qədim dövrlərdən bəri Azərbaycan ərazisinin indiki Şərur, Ordubad, Şah buz, Şəki, Kəlbəcər, Laçın, Qazax və qərbi Azərbaycan ərazisi olan İrəvan bölgəsində çox geniş yayılmışdır. Bu bölgələrdə, əsasən toylarda və el şənliklərində yaşlı insanlardan başlayaraq uşaqlara kimi hər kəs dəstə tutub yallı gediblər. Ümumiyyətlə, "yallı" məfhumu Azərbaycan xalqının dilində çox qədim zamanlardan mövcuddur. Belə ki, "yal" sözü–dağın yüksəkliyində yerləşən düzəngah deməkdir.

Xalq rəqslərimizin araşdırıcılarından Kamal Həsənov "yallı" sözünün mənasını açıqlayaraq yazır ki; "Yal – cərgədir, zəncir xəttidir. "Yallı"nı oynayanlar bir və ya iki cərgədə, bəzən də bir neçə cərgədə dururlar".[8]

"Yallı" – həmrəylik rəmzidir. Azərbaycanın görkəmli bəstəkarı Əfrasiyab Bədəl bəyli "yallı" oyununa yüksək qiymət verərək yazırdı ki; "Burada çox intişar edən

"yallı" forması bütün bir elin, bir obanın kollektiv surətdə öz sevinc duyğularını, bacarıq və istedadını təmsil edən əzəmətli bir yaradıcılığın parlaq təzahürüdür"..
"Yallı" – cərgəyə düzülərək dəstə ilə ifa olunan kütləvi rəqsdir. Oyun zamanı yallıya kollektivin önündə gedən iştirakçı (rəqqas) rəhbərlik edir. Ona xalq arasında "yallıbaşı" deyirlər. Yallıbaşı əvvəldən axıradək rəqsin ümumi gedişinə, iştirakçıların nizamlı hərəkətinə, hər bir ayaq hərəkətinin bütün iştirakçılar tərəfindən eyni qaydada yerinə yetirilməsinə, rəqsin düzgün başlamasına və vaxtında sona yetməsinə nəzarət edir. Bu işdə "yallıbaşı"ya ondan sonra gələn (ikinci rəqqas) iştirakçı "müavin" və dəstənin axırında duran sonuncu iştirakçı "ayaqçı" kömək edir. "Yallı"nı oynayarkən yallıbaşının və ayaqçının əlində yaylıq olmalıdır. Onlar əllərini yuxarı qaldıraraq yaylığı yelləməklə dəstənin əvvəlinin və axırının harda olduğunu bildirirlər.

Bu məcmuədə bəstəkarın **"Yallı",** əsəri nağara ilə fortepiano aləti üçün köçürülmüşdür. Bu əsər nağara ritminə uyğun işlənmişdir. "Yallı rəqsi" 2/4 sadə ölçüdə, Moderato tempdə, gumrah ritmdə ifa olunur. Əsərin girişdə iki nağara on səkkiz xanə solo ilə başlayır sonra fortepiano ifaya qoşulur.

**Nümunə№5**



Əsərin on doqquzuncu xanəsindən başlanan musiqi nağara ilə fortepiano ansamblın alınması üçün sol əl şapalağı(iki onaltılıq notları) ritmə elə oturdmaq lazımdır ki, birinci, ikinci nağara və fortepıano ansamblı alınsın. Ansamblın alınması üçün əsərin metroritm dəqiqliyindən, notların üzərində qoyulan ştrixlərdən, alt, üst əl şapalaqlardan tremolalardan və vurğulardan düzgün istifadə etmək lazımdır.

Əsərin ifa tərzi tələbənin texniki imkanları əsərin məzmununa və ruhuna uyğun gələn 4-cü sifradan başlayan orta, qıraq (zil,bəm) (п->) alt, üst əl şapalaqla vurulması xüsusilə "Yallı"rəqsinə xarakterik olan onaltılıq və səkkizlik notlar üzərində yazıldığı ştrixlərlə çalınmalıdır.

**Nümunə№5**




**Nümunə№6**

**Həsən Rzayev “Pambıq”**

Görkəmli bəstəkar, pedaqoq, zərb alətləri ifaçısı H. Rzayev 1928-ci ildə Bakıda musiqiçi ailəsində anadan olmuşdur. H.Rzayev çox sadə, təmkinli, incə qəlbli bir insan olub. Parlaq zərb alətlərinin ifaçısı olan bəstəkar bu alətlər üçün gözəl əsərlər yaradıb. Bəstəkar “Babək” simfoniyası, “Uzaq sahillərdə” simfonik-poema, truba və simfonik üçün konsert, Çahargah rapsodiyası və s. yaratmışdır.H.Rzayev “Pambıq” əsəri nağara və iki nağara (duet) üçün köçürülmüşdür.Əsər 5/8 qarışıq ölçüdə, Allegro tempində yazılmışdır. İki nağara əvvəldə 18 xanəli girişlə başlayır və solo ifa edirlər. Əsərin ritmi forması, xarakter müxtılifliyi rəngarəngdir. Əsərin ritmi əsasən səkkizlik və onaltılıq notlar üzərində qurulmuşdur.

**Nümunə№6**




Burada üst, alt əl şapalaqların, tremolaların vurğuların işlədilməsi müxtəlifdir. Çünki bu pyesin ritm məzmununa və ruhuna uyğun gələn üst, alt əl şapalaqlar, tremolalar və vurğular vurulmalıdır.Ritmin ifası zamanı orta, qıraq, zil, bəm, alt, üst əl biləngin sərbəst şəkildə hərəkəti, alt, üst əl şapalağın sərbəst şəkildə

işlədilməsinə fikir verilməlidir. Səkkizlik tremolaları orta və yaxud qiraq şapalaqla, orta şapalağın yerindən tremola ilə başlayıb yumşaq əli arxaya sürüşdürülməlidir, və çırtma əvəzi şapalağı vurğu ilə ifa edilməlidir.

**Nümunə№7**

**Həsən Rzayev "Qalayçı"**

Həsən Rzayevin "Qalayçı"əsəri nağara və iki nağara (duet) üçün köçürülmüşdür. Əsər Alleqretto tempində 2/4 sadə ölçüdə "Marş" ritmdə fortepianonun müşayiət ilə zərb aləti üçün yazılmış pyesdir. Həsən Rzayev ilk Azərbacan bəstəkarıdır ki, zərb alətləri üçün pyes yazmışdır. Həmin pyeslər hal-hazırda nağara ifaçılığında istifadə olunur. Əsərin əvvəlindən fortepiano ilə nağaraların bir yerdə ifası verilir, fortepiano ilə nağara ifaya başlayarkən birinci və ikinci nağara bir-biri ilə sual cavabla ifa edirlər. Onda fortepiano ilə nağaraların dueti yaranır. Əsərin ifa ritmi ştrixlərin yerli yerində ifa olunmasıdır. Əsas məqsəd ritmin səslənmə xüsusiyyəti, metroritmik dəqiqliyi, alt, üst əl şapalaqların və termolaların düzgün işlədilməsidir.

**Nümunə№7**




**Nümunə№8**

**Həsən Rzayev "Aşıqsayağı"**

Həsən Rzayevin "Aşıqsayağı"əsəri nağara və iki nağara (duet) üçün köçürülmüşdür. Əsər 6/8 mürəkkəb ölçüdə, Allegretto tempində gumrah ritmdə yazılmışdır. Əsərin əvvəlində birinci və ikinci nağara on xanə solo ifa etdikdən sonra, fortepiano ifaya qoşulur. İki nağara üçün işlənmiş bu rəqs nağaraların bir-biri ilə və fortepiano ilə birlikdə sual cavabla dialoqu ilə ifa olunur.

**Nümunə№8**




**Nümunə№9**

## Asəf Zeynallı “Rəqs”

Qürur hissilə deyə bilərik ki, Asəf Zeynallı - Azərbaycanda professional təhsili almış ilk bəstəkar, bir neçə janrın əsasını ilk dəfə qoyan sənətkardır. O, dünyaya Dərbənd şəhərində göz açıb, uşaqlıq illərini burada keçirib, 1920-ci ildən isə Bakı həyatı başlayıb. 1923-cü ildə Azərbaycan musiqi texnikumuna qəbul olunub (truba sinfi üzrə). Gənc bəstəkarın elə ilk əsəridə - "Truba üçün mahnı" məhz burada yaranıb. Bir müddətdən sonra o, nəfəsli alətlər şöbəsindən simli alətlər şöbəsinə keçib, böyük həvəslə violonçelə bağlanıb, həmin alət üçün əsərlər yazıb.

Dahi Üzeyirbəy Hacıbəyli gənc Asəfin taleyində çox böyük rol oynayıb, elə onun məsləhəti ilə də o, 1926-cı ildə konservatoriyaya daxil olur. Nəfəsli alətlər fakültəsində oxuyur. Lakin bir neçə ildən sonra bəstəkarlıq fakültəsinə keçir və burada təhsilini davam etdirir. Bəstəkarlıq sinfində tanınmış, müəllimlər - professorlar V.V.Karaqiçev və L.P.Yablonko klassik musiqimizin qanunlarını yüksək professional lıqla gənc Asəfə öyrədirlər. Üzeyir bəy Hacıbəylinin sinfində Asəf Zeynallı Azərbay can xalq musiqisinin əsaslarına dərindən bələd olur və onun rəhbərliyilə bir neçə maraqlı əsər yaradır. Bu əsərlərdə bəstəkarın Azərbaycan xalq musiqisi ladlarına, janrlarına əsaslandığı aydınca duyulur.

Üzeyir bəy Hacıbəylinin sinfində Asəf Zeynallı gözəl, yadda qalan və bu gün də tez-tez ifa olunan əsərlər yaradır: "Çahargah", "Durna" - fortepiano üçün, "Muğam üslubunda" - skripka və fortepiano üçün və bir çox başqa əsərlər. Maraqlıdır ki, Asəf Zeynallı yaradıcılıq fəaliyyətinə hələ tələbə ikən Bakıdakı Satir-aqit teatrında başlamışdır. Onu bura həmin teatrın direktoru, görkəmli

teatrşünas, dövlət xadimi və yazıçı Məmməd Sadıq Əfəndiyev dəvət etmişdi. Asəf Zeynallı bu zamanlar bir neçə tamaşaya musiqi yazır.

20-ci illərin sonu, 30-cu illərin əvvəllərində Azərbaycanda kiçik formalı instrumental əsərlərin yazılmasında A.Zeynallının böyük rolu olmuşdur. A.Zeynallı "Qoyunlar", 2 violonçel və f-no üçün"Muğamsayağı",skripka və f-no üçün "Lay lay",həmçinin Üz.Hacıbəylinin yazdığı "Aşıqsayağı" trio f-no üçün əsərlər yaratmışdır. Bu dərs vəsaitinə Asəf Zeynallının "Rəqs" əsəri Azərbaycan nağarası üçün işlən miş versiyası daxil edilmişdir. Əsər Vivace tempində,12/16 ölçüdə yazılmış bu əsər iki nağara aləti üçün qaytağı rıtmdə ifa olunur. İki nağara üçün işlənmiş bu rəqs iki nağaranın bir-biri ilə yarışmasını, bir-biri ilə sual cavabla ifa olunmasını və fortepiano ilə birlikdə sual cavabla dialoqu baş verir. Əsərin əvvəlində solo hissəsində tremola ilə ifa olunan Punktirli (nöqtəli) notları, vurğunu ritmə elə oturdmaq lazımdır ki, nağara və fortepıano ansamblları alınsın. Ansamblın alınması üçün əsərin metroritm dəqiqliyindən, notların üzərində qoyulan ştrixlərdən, alt və üst əl şapalaqlardan və vurğulardan düzgün istifadə etmək lazımdır.

**Nümunə№9**



Rəqs musiqisi Azərbaycan bəstəkarlarının yaradıcılığında olduqca geniş tətbiq olunmuşdur. Demək olar ki bütün bəstəkarların yaradıcılığında müəyyən əsərlərin tərkibində rəqs musiqisindən və ya ritmindən istifadə olunmuşdur.

**Nümunə№10**

**Səid Rüstəmov "Arazbarı"**

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli simaları arasında Səid Rüstəmovun öz yeri, dəst-xətti var. Onun musiqi dili anlaşıqlı və yaddaqalandır. Yüksək xalq sevgisindən yaranan bu musiqi insanların qəlbinə yol tapmağa, onların hisslərinə hakim kəsilməyə qadirdir. Professional musiqimizin, milli bəstəkarlıq məktəbinin banisi dahi Üzeyir bəydən dərs alan və onun yolunu, musiqi irsini layiqincə davam

etdirən Səid Rüstəmovun adı musiqi tariximizin səhifələrinə əbədi yazılıb.

O, görkəmli bəstəkar olmaqla yanaşı, pedaqoq, dirijor, ictimai xadim kimi də müst əsna xidmətləri ilə özünə əbədiyaşarlıq qazanıb. Zərbi muğam janrının özünəməx sus səciyyəvi cəhətləri var. Öz inkişafı cəhət dən tarixən qədim olan vokal-instrumental zərbi muğamların populyarlğına baxma yaraq, bir janr kimi indiyə qədər o, lazımınca tədqiq edilib öyrənilməmişdir. Bunu əsas səbələrindən bir son illərə qədər zərbi muğamların not yazısının olmamasıdır.

Maraqlıdır ki, janrın mahiyyəti onun adını müəyyənləşdirir. Mahnı Məhz zərbi muğam sözü instrumental-vokal muğamların ifası zamanı müğənnini müşayiət edən instrumental ansamblların tərkibində zərbli alətlərə böyük yer verilməsi ilə əlaqədardır. Onu da qeyd edək ki, xanəndə muğam hissələrini oxuyan zaman zərb alətlərinin ritmik formullarını xalq çalğı alətləri ansamblına daxil olan başqa alət lər də ifa edirlər. Bu keyfiyyət digər tərəfdən janrın başqa səciyyəvi cəhətini də müəyyənləşdirir. Məlumdur ki, muğam dəstgahları suitaya bənzər çoxhissəli vokal-instrumental əsərlərdir. Onun səciyyəvi xüsusiyyəti vokalın aparıcı rolundadır. Zərbi muğamlar isə birhissəli kompozisiya təşkil edir. Sərbəst metro-ritmə əsaslanan muğam dəstgahlarının əksinə olaraq zərbi muğamlarda vokal musiqi instrumental müşayiəti dəqiq ölçülü fonuna əsaslanır.

Zərbi muğamların öz müstəqil adları var. Bu qəbildən olan muğamlara müasir zamanda aşağıdakılar aiddir: Heyratı, Arazbarı, Səmayi–Şəms, Mənsuriyyə, Mani, Ovşarı, Qarabağ şikəstəsi, Kəsmə şikəstə.

Bəstəkarın yaradıcılığında zərbi muğamların nota köçürülməsi də geniş yer tutur. Bəstəkarın "Arazbari" zərbi-muğamı, şən əhval–ruhiyyə "təntənə" ilə ¾ sadə ölçüdə ritmlə ifa olunur. "Arazbari"əsəri nağara və iki nağara (duet) üçün köçürülmüşdür. Nağara ilə fortepianonun müşayiətilə ifa olunan "Arazbarı" zərbi-muğamıda metroritmin sabit saxlanması, çərək tremoların vurğularını, səkkizlik notlarda işlədilən forşlaqları dəqiqliklə yerinə yetirilməlidir. Əsərdə intonasiyanın dəqiq olmasına, səs rəvanlığına, ritm sabitliyinə ciddi diqqət verilməlidir.

**Nümunə№10**



Əsərlər köçürülərkən nağaranın texniki imkanları nəzərə alınmışdır. Ifaçılara məsləhət görülür ki, zil, bəm səsin dəqiq olmasına, ritm sabitliyinə, alt, üst, zil, bəm əl şapalaqların sərbəst işlədilməsinə, alt, üst əl biləyin sərbəstliyinə ciddi fikir verilməlidir.

**Nümunə№11**

**Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov "Rəqs" Koroğlu op I pərdə**

Üzeyir Hacıbəyov SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, Dünya şöhrətli bəstəkar, müasir Azərbaycan musiqi mədəniyyətinin qurucusu, Azərbaycan musiqisinin klassiki, görkəmli musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, professor,milli bəstəkarlıq məktəbinin təməlini qoymuşdur. O, Azərbaycan milli operasının, eləcə də Şərqdə ilk operanın banisidir.

Bəstəkarın yaradıcılığında kulminasiya mərhələsi olan "Koroğlu" dünya klassik operaları sırasında parlaq nümunələrdən biridir. 5 pərdəli bu operanın libretto müəllifləri H.İsmayılov və M.S.Ordubadidir. Librettonun yaradılmasında Hacıbə yov fəal iştirak etmişdir. Üzeyir Hacıbəyov opera üzərində 1932–1936-cı illərdə işləmiş, ilk tamaşa 1937-ci il aprelin 30-da AOBT-nda olmuşdur. Azərbaycanda, ümumiyyətlə Zaqafqaziyada, Orta Asiya, Türkiyə və İranda geniş yayılmış "Koroğlu" xalq dastanı operanın süjet əsasını təşkil edir. Operanın musiqisində Azərbay can xalqının tarixi taleyi, xarakteri, psixologiyası, bütövlükdə dünyagörüşü əksini tapmışdır. "Koroğlu" tipik xalq qəhrəmanlıq dastanıdır. "Koroğlu"da opera sənətinə xas bütün əlamətlər bəstəkarın milli musiqi təfəkkürü süzgəcindən keçərək kamillik səviyyəsində yaradılmışdır. I pərdədəki iki ariozoda qəhrəmanın ehtirasla sevən aşiq ("Səni gördüm") və coşğun mübarizlik ("Təngə gəldik yox tavan") kimi ən tipik cəhətləri təzahür edir. Həsən xanın sarayında çıxış edən Koroğlu təkcə adi aşıq deyil, cəsarətli xalq qəhrəmanı kimi təqdim edildiyi üçün onun oxuduğu lirik aşıq mahnıları burada qəhrəmanlıq rəmzi kimi qavranılır. Koroğlu obrazı operada, demək olar ki, həmişə kütləvi xalq səhnələri çərçivəsində açılır. Məsələn, I pərdədə Koroğlunun səhnədə ilk çıxışı - "Səni gördüm" ariozosu kəndlilərin rəqsindən sonra, həmin pərdədəki ikinci ariozo isə bilavasitə final xoru ilə birgə səslənir.

Bütün ömrü boyu Üzeyir bəy Azərbaycan mədəniyyətinə, musiqisinə xidmət edən şəxsiyyət 300 dən çox xalq mahnısını nota salmış, marş, kontata, Fantaziya, mahnı və romanslar, kamera və xor əsərlərini yazmışdır. Üzeyir bəy Hacıbəyli həm Azərbaycan xalq cümhuriyyətinin həm də Azərbaycan Himninin müəllifidir. Üz.Hacıbəyli 1908- ci ildə Şərqin ilk operası olan "Leyli və Məcnun", 1909-15 ci

illərdə bir-birinin ardınca “Şeyx Sənan”, “Rüstəm və Söhrab”, “Şah Abbas və Xurşudbanu”, “Əsli və Kərəm”, “Harun və Leyla” operalanrını yazmışdır. 1937- ci il aprelin 30 da Azərbaycan Dövlət Akademik Opera və Balet teatrında “Koroğlu” operası yaradıcılığının zirvəsini təşkil edir.Üz. Hacıbəyov görkəmli yenilikçi, müəllim, Şərqdə ilk teatrın  və ilk Konservatoriyanın yaradıcısı kimi xalqımızın tarixində və mədəniyyətində dərin iz qoymuşdur. Bəstəkarin “Koroğlu”, operasından I pərdədən“Rəqs”(kəndlilərin rəqsi)Azərbaycan nağarası üçün köçürülmüş, dərs vəsaitində əsərlər sırasına daxil edilmişdir “Rəqs” 2/4 sadə ölçüdə, “Yallı” ritmində,  gumrah xarakterdə bir və ıki nağara aləti üçün işlənmişdir.

Əsərin əvvəlində birinci, ikinci nağara və fortepıano səkkiz xanə ifa etdikdən sonra, əvvəl birinci və sonra ikinci  nağara ardıcılıqla fortepiano ilə ifanı dialoqla davam etdirir. İki nağara üçün  işlənmiş bu rəqs nağaraların  fortepiano  ilə birlikdə sual- cavabla  dialoqunu yaradır. Əsərin əvvəlində üst əl şapalağıilə ifa olunan iki onaltılıq notları, 1-ci rəqəmə üç xanə qalmış punktirli (nöqtöli) notlarıri, 1-ci rəqəmdən sonra tremola ilə ifa olunan vurğulu notları alt, üst(zil, bəm) şapalaqları ritmə elə oturdmaq lazımdır ki, nağara və fortepıano ansamblı alınsın.Ansamblın alınması üçün əsərin metroritm dəqiqliyinə, notların üzərində qoyulan ştrixlərdən, alt , üst əl şapalaqlardan və vurğulardan düzgün istifadə etmək lazımdır.

**Nümunə№11**




**Nümunə№12**

**Qara Əbülfəz oğlu Qarayev  “Marş”**

Qara Qarayev – müasir musiqi mədəniyyəti xəzinəsinə əvəzolunmaz töhvə verən görkəmli bəstəkardır. Böyük musiqi və ictimai xadim, alim və tədrisçi Qara Qarayev Azərbaycanın musiqi incəsənətində aparıcı fiqur rolunu oynamışdır.Qara Əbülfəz oğlu Qarayev Azərbaycan və SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur.

Q.Qarayevin gözəl, özünəməxsus yaradıcılığı həm Azərbaycanda, həm də onun hüdudlarının kənarında geniş şəkildə tanınmışdır. Q.Qarayevin adı layiq olduğu dünya şöhrətini qazanıb. Onun əsərləri musiqili teatrların repertuarlarında və əcnə bi ölkələrin ən yaxşı dirijorlarının proqramlarında layiqli yerə sahibdir. Polşa, Almaniya, Rumıniya, Fransa, ABŞ, Bolqarıstan kimi ölkələrdə onun baletləri səhnələşdirilir, bir çox ölkənin konsert zallarında simfonik və kamera-instumental əsərləri səslənir. Bunlar dünya musiqi klassikası fonduna birdəfəlik həkk olunmuş əsərlərdir. Q.Qarayevin yaradıcılığının geniş populyarlığını, minlərlə dinləyicinin ona qarşı sevgisini ilk olaraq əsərlərindəki böyük məzmunun dərin mənası ilə izah etmək olar. Q.Qarayev həmişə öz yaradıcılığında böyük fikir mühümlüyünə və genişliyinə malik mövzuları əks etdirir. Onun musiqisində daima yüksək vətəndaş tonu, sənətkarın – xoşbəxtlik və azadlıq uğrunda döyüşçünün səsi eşidilir.

Q.Qarayevin əsərləri daima aktualdır, proqressiv bəşəriyyəti narahat edən ciddi ictimai-etik problemlərin həll edilməsinə yönələnib. Bəstəkar nə qədər ictimaiyyətin geniş problemlərinə müraciət etsə də, onun diqqət mərkəzində həmişə insan, onun xoşbəxtliyi uğrunda mübarizə, mənəvi dünyası və fikirləri durur. İnsan şəxsiy yəti haqda lirik hekayələri vasitəsi ilə, Qarayev tez-tez öz musiqisində sosial icti - mai, fəlsəfi müstəvisindəki ali ümumiləşdirmələrə yüksəlir. Qara Qarayev incəsə- nətində bəstəkar sifətini, individuallığını təyin edən öz yolunu seçən böyük ustadla rın siyahısındadır. Bu rus və dünya klassikasının ənənələrinə malik yaradıcılığın dərin fundamental əsaslarının Azərbaycan musiqisinin ənənələri ilə uzlaşma yoludur. Nəhəng istedad və yorulmaz, cəsarətlə dolu yenilikçi axtarışlar onu Azərbaycan musiqisinin ənənələrinin daha da inkişaf edilməsinə gətirib çıxarır. Musiqisində hərtərəfli işıqlandıraraq, geniş fikir dərinliyinə malik bu mövzuları canlandıraraq, Q.Qarayev yalnız reallığın hadisələrinə müraciət etmir, həmçinin öz süjetlərini xalq əfsanələrindən, bütün dövrlərin şair və yazıçıların yaradıcılığından götürür. Qara Qarayev Azərbaycan musiqisinin janrlarının zənginləşdirilməsi işində əvəzsiz rol oynamışdır. Bəzi öncə mövcud olmuş janrlar onun bəstələrində öz görünüşü dəyişib, bəzi janrlar isə ilk dəfə onun tərəfindən milli musiqi yaradıcılığı na daxil edilib.Onun simfonik musiqinin, baletin, kamera-instrumental, vokal musiqinin, kino və dramatik səhnələr üçün musiqinin inkişafında xidmətləri də həmçinin əvəzsizdir.

Bəstəkarın fortepiano üçün işlənmiş "Marş," əsəri 4/2 sadə ölçüdə, "Canlı" Moderato tempində, gumrah xarakterdə yazılmışdır. Bir və ıki nağara aləti üçün işlənmişdir. "Marş" adından da bəlli olduğu kimi, marş intonasiyaları əsasında sadə yaddaqalan melodiya vasitəsi ilə təqdim olunmuşdur."Marş" sadə melodik dili və ritmi ilə "Marş" xüsusiyyətinə malik, ritmik yazılan pyesdir. Əsərin əvvəlindən ifa olunan dörd xanə musiqidən sonra, beşinci xanədəniki nağara sual

cavabla, orta, qıraq (bəm, zil) şapalaqla “solo”ilə başlayır, doqquzuncu xanədən musiqi və ritm eynilə təkrar olunur.

**Nümunə№12**



**Nümunə№13**

Əsərin 38-ci xanəsindən başlanan ritm səkkzlik triollar alt əllə orta şapalaqla, reprizada olan(40-cı xanədə) bir səkkizlik üç onaltılıq triolları isə çırtma əvəzi şapalaqla çalınması məqsədəuyğundur. Punktirli (nöqtəli) notları, səkkizlik termola ilə ifa olunan vurğulu zil, bəm şapalaqları ritmə elə oturdmaq lazımdır ki, iki nağara və fortepıano ansamblı alınsın. Ansamblın alınması üçün əsərin metroritm dəqiqliyinə, notların üzərində qoyulan ştrixlərə,alt , üst əl şapalaqlara və vurğulara düzgün əməl olunmalıdı.

**Nümunə№13**



**Nümunə№14**

**Fikrət Əmirov “Şəhrizadın bayramı” “Min bir gecə” baletindən.**

SSRİ xalq artisti, Dövlət mükafatı laureatı, Sosialist əməyi qəhrəmanı Fikrət Məşədi Cəmil oğlu Əmirov 1979-cu ildə iki hissəli “1001gecə”baletini yazır. Baletin premyerası 1979-cu ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında baş tutumuşdur.[2]

Baletinin əsas qayəsini qədim tarixə malik olan “Min bir gecə” nağılları, qəddar Şəhriyar və müdrik Şəhrizadə, Şərq qadınının zəkası, igidliyi və xeyirxahlığı, bütün bu cəhətlərin gücü ilə qalibiyyətə nail olması təşkil edir.[5] Baltedə bir çox münasqişələr, təzadlıq məqamlar baş verir. Tamaşanın emosional palitrası çox zəngindir: burada qəddarlıq və zəriflik, nifrət və məhəbbət, ölüm və şənlik qarşıla şır. Libretto müəllifləri olan Maqsud və Rüstəm İbrahimbəyovlar nağılın əsas qayəsini götürərək, əsasən fəlsəfi məğzi açmağa nail olmuşlar.Əsas etibarilə nağıldan başlanğıc ekspozisiya, zavyazka, final, həm də müstəqil surətdə mövzud olan üç nağıldan istifadə olunmuşdur. İstifadə edilmiş nağıllar “Sindibad və sehrli zümrüd quşu”, "Ələddin və gözəl Budur”, "Əlibaba və qırx quldur” haqqında nağıllardır.[5

Min bir gecə baleti Fikrət Əmirovun yaradıcılığında xüsusi mərhələ təşkil edir.[3] Adətən əsərlərinin bədii məzmununu xalqa yaxın olan mövzulardan götürən Fikrət Əmirov Min bir gecə baletini yazarkən də ənənəsin sadiq qalaraq xalqın çox sevdiyi nağıllara müraciət etmişdir. S. Təhmiraqızı qeyd edir ki, “bəstəkar bu epik janrın dili ilə sanki öz düşüncələrini, məhəbbət və sədaqət ideyalarını tərənnüm edir.”[3] F. Əmirov “Min bir gecə” ərəb nağıllarının süjetinə müraciət etməsinin səbəbləri haqqında müsahibələrinin birində belə açıqlama verirdi:

> *Min bir gecə mövzusu məni uzun illər idi ki, rahat qoymurdu. Şərqin böyük həyat eşqi, yüksək məhəbbət duyğuları ilə yoğrulmuş, müdrik fikirlərlə zəngin olan bu ölməz sənət abidəsi çox sənətkara ilham vermiş və şübhəsiz ki, bundan sonra da ilham verəcəkdir.*[9]

Bu dərslikdə bəstəkarın əsərləri nağara üçün köçürülmüşdür. “Şəhrizadın bayramı” (1001 gecə baletindən) 8/8 ölçüdə, Allegretto festante tempində yazılmışdır. Bəstəkarın”Şəhrizadın bayramı”əsəri ıki nağara aləti üçün işlənmiş dir. 8/8 ölçüdə ifa olunur. Əsərin əvvəlində birinci nağara üçüncü xanədə göstərilən notları, beşınci xanədə nöqtəli çərək termoları vurğu ilə ritmə elə oturtmalıdır ki, iki nağara ilə fortepıano ansamblı alınsın.Əsərin əvvəlindən altı xanə ifa etdikdən sonra, iki nağara ilə fortepiano bir-birini əvəz etməklə dialoq baş verir. On üçüncü xanədən başlayan punktirli (nöqtöli) ritmləri, otuzuncu xanədən başlayan 5/8 olçüdə iki xanə, 6/8olçüdə bir xanə, 5/8 olçüdə bir xanə dəyişən ritmləri ritmə elə oturdmaq lazımdır ki, nağara və fortepıano ansamblı alınsın. Ansamblın alınması üçün notların üzərində qoyulan ştrixlərdən, alt və üst əl şapalaqlardan və vurğulardan düzgün istifadə etmək lazımdır.

**Nümunə№14**




**Nümunə№15**

**Arif Məlikov "Türk qızların rəqsi" Məhəbbət əfsanəsi baleti**

Görkəmli Azərbaycan bəstəkarı musiqi mədəniyyətimizin ən parlaq şəxsiyyətlərdən biri olub, onun dərin və özünəməxsus musiqisi bütün dünyada məşhurlaşmışdır. Müxtəlif janrlara məxsus əsərlərin müəllifi olan bəstəkar özünü bu janrların hər birində tam sərbəst hiss edir. Balet və simfoniyalar, monumental vokal-orkestr əsərləri, kamera-instrumental əsərlər, kino və dram tamaşalarına musiqi, romans və mahnılar, fortepiano silsilələri, operettalarda bəstəkar olduqca orijinal şəkildə çıxış edərək öz fərdi yaradıcılıq simasını yaratmışdır. Arif Məlikovun yaradıcılığı dünya və Azərbaycan klassik ənənələrinə söykənərək, bu xüsusiyyət bəstəkarın yaradıcılığının bir çox sahələrində öz ifadəsini tapmışdır.

Arif Məlikov hələ öz yaradıcılıq yolunun başlanğıcında görkəmli türk şairi Nazim Hikmətin librettosu əsasında bəstələdiyi "Məhəbbət əfsanəsi" baleti ilə ümumdünya şöhrəti qazanmışdır. "Məhəbbət əfsanəsi" bir çox ölkələrin səhnəsində tamaşaya qoyularaq, bir sıra maraqlı xoreoqrafik vasitələr meydana gətirmişdir. 1959-cu ildə Q.Qarayevin məsləhətilə Sankt-Peterburq Opera və Balet teatrı A.Məlikova N.Hikmətin "Məhəbbət əfsanəsi" pyesinə balet yazmağı təklif edir. 26 yaşlı bəstəkar N.Hikmət, baletmeyster Y.Qriqoroviç, rəssam Virsaladze və dirijor Niyazidən ibarət yaradıcı heyətlə birgə özünün şah əsərini yaradır. Premyeradan sonra əsər musiqi tarxində yeni söz, yeni mərhələ kimi qiymətləndirilir. Balet dünyanın 26 ölkəsində müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. "Məhəbbət əfsanəsi" baleti özündən qabaq balet sənətinin qazandığı nailiyyətləri ümumiləşdirərək, bütün komponentlərin üzvü sintezi ilə səciyyələnən bitkin balet tamaşasının gözəl, etalon nümunəsi oldu. Baletin simfonik musiqisi, yaddaqalan gözəl melodiyaları, parlaq xoreoqrafiyası onu balet sənətinin daima arzulanan repertuar əsərlərindən birinə çevirir. Baletdən bir çox musiqi nümunələri müstəqil əsər kimi sevilərək tədris repertuarlarına və konsert proqramlarına daxil

edilmişdir. Belə musiqi nümunələrindən biri də “Türk qızların rəqsi”dir. Əsəri nağarada ifa edərkən alt və üst əl hərəkətinin metroritm dəqiqliyinin mənimsənilməsi əsas şərtdir. “Türk qızalarının rəqsi” əsəri 9/8 ölçüdə, Allegro tempində nağara və ıki nağara aləti üçün işlənmişdir. Əsər 4 xanəli girişlə başlayır. F-no sol əl stakkato (qırıq-qırıq) xarakterində yazılmışdır. Əsərdə texniki çətinliyi (ritm çətinliyi)nəzərə alaraq  çırtma əvəzi zil şapalağın vurğu ilə düzgün vurulması məqsədəuyqundur.Metroritm sabitliyinə, alt, üst (zil, bəm)əl şapalağın biləyin sərbəst işlədilməsinə, ritmdən-ritmə  keçərkən alt, üst (zil,bəm) əl şapalaqların düzgünlüyünə fikir verməlidir.

**Nümunə№15**




**Nümunə№16**

**Süleyman Əyyub oglu Ələsgərov “Rəqs tokkata”**

Azərbaycan musiqi tarixində və inkişafında Respublikanın xalq artisti, Dövlət mükafatı laureatı, istedadlı dirijor, tanınmış pedaqoq, ictimai xadim, professor S.Ələsgərov özünəməxsus fəxri yer tutan bəstəkarlardan biridir

S.Ələsgərov zəngin musiqi irsinə malikdir. Bu musiqi irsi Azərbaycan professional musiqisinin bir çox janrlarını əhatə edir. Bəstəkar 2 operanın («Bahadur və Sona» və «Solğun çiçəklər»), 12 musiqili komediyanın, 2 simfoniyanın («Gənclik» və «Vətən), «Bayatı-Şiraz» simfonik muğamının, violonçel, fortepiano və simfonik orkestr üçün «Ikili konsert»in, simfonik orkestr üçün «Uvertüralar»ın, 2 simfonik poemanın, 6 kantatanın, bir sıra kamera-instrumental əsərlərin, tar ilə Azərbaycan xalq çalğı alətləri orkestri üçün 3 konsertin, xor üçün, xalq çalğı alətləri orkestri üçün bəstələnmiş rəngarəng janrlı əsərlərin, 200-ə qədər mahnı və romansların müəllifidir.

Yaradıcılığında operetta janrı əsas yer tutur. "Ulduz" ,"Özümüz bilərik" ,"Olmadı elə, oldu belə","Milyonçunun dilənçi oğlu", "Hardasan ay subaylıq" və s. operettaları, Bundan başqa, onun "Bahadır və Sona", "Solğun çiçəklər" operaları,

bir neçə kantata, "Gənclik" və "Vətən" simfoniyaları, "Bayatı-Şiraz" simfonik muğamı, simfonik poema və süitaları, 3 tar konserti, 200-ə qədər mahnı və romansları (22 sözsüz mahnı), "Tarantella", "Rəqs-tokkata","Rondo", "Aşıqvari", qanun aləti üçün yazdığı "Poema"("Rapsodiya") və digər əsərləri Azərbaycan musiqisinin incilərindəndir. Onun fortepiano üçün işlədiyi "Rəqs tokkata"nın özünəməxsus yeri var. "Rəqs tokkata" Allegro vivace tempində, 6/8, ¾ ölçüdə nağara və ıki nağara aləti üçün işlənmişdir. Bu dərs vəsaitində əsərin nağara üçün onun texniki imkanları və ritmə forşlaq əlavə olunmaqla, işlənmiş variantı verilmişdir. İki nağara və fortepianonun müşayyəti ilə Əsərin əvvəlindən ifa olunan dörd xanə musiqidən sonra, beşinci xanədən iki nağara fortepianoya sual cavabla, orta, qıraq (bəm, zil) şapalaqla cavab verir. Beşinci xanədən başlanan ritm eynilə üç dəfə dörd xanə, təkrar olunur. Əsərdə intonasiyanın dəqiq olmasına, səs rəvanlığına, ritm sabitliyinə ciddi diqqət verilməlidir.

**Nümunə№16**




Müəlliflərin əsas yeniliyi dərs vəsaitində işlənmiş fortepiano ilə nağaranın bir-birilə sual cavabla ifa olunması, duet, trio, kvartet (iki, üç, dörd) nağara üçün yazıl mış əsərlərdə nağaraların bir-biri ilə yarışması, əsərlərdə ölçülərin tez-tez dəyiş-məsi, tələbələrin birlikdə çalmaq, bir birlərini eşitmək vərdişlərinə böyük təsir göstərəcək. Nağara solo ifa, orkestr və ansamblIarda çalınır. Nağara ixtisasının tədrisi zamanı aşağıdakı tələblərə ciddi fikir verilməlidir:

1. İfa olunan rəng, təsnif və bəstəkar əsərlərinin hissi, emossional xarekterinə uyğun və düzgün ifa olunmasına nail olunmalı.

2. Müəllimin bütün göstərişlərini diqqətlə izləməli və əməl etməli.

3. Tələbələrin nağara ifaçılıq ixtisasının müasir tələblərinə uyğun düşüncə və təfəkkürrünü formalaşdırmalı

4. Solo və ya fortepiano alətinin müşayiəti ilə ifa zamanı bir-birinin çalğısını eşitməklə yanaşı musiqinin ümumi ritmini qoruyub saxlamaq və dinamik cizgilərə riayət etməli.

5.Tələbələrin ifaçılıq texnikasının daha da təkmilləşməsinə köməklik göstərməli.

6. Müəllim nagara proqramını tədris etməyə başlayarkən ifa olunan ritmlərin, əsərlərin xarakteri, tempi, melodik inkişaf prinsipləri, musiqi forması haqqında geniş məlumat verməli.

7.Təhsil alan tələbələrə tədris proqramı əsasında materialın daha asan əldə olunmasına əyani şəkildə köməklik etməli.

8.İfa zamanı musiqinin duyumlu ifası üçün izah və məlumatlar verilməlidir ki,tələbəonun qarşısında hansı ifa tərzinin məqsədəuyğun olduğunu bilsin və ona riayət etsin.

9. Uşaqlarda ansambl ifaçılığının öyrədilməsi.

10. Klassik dünyəvi musiqi əsərləri uşaqlarda musiqi zövqünü formalaşdırmalı.

Müasir dövrdə respublikamızda başqa sahələrdə olduğu kimi, milli musiqimizdədə müxtəlif alətlər üzrə təhsil alan tələbələrin, ali-peşəkar musiqiçi kadrların, mütəxəssislərin yetişdirilməsində böyük nailiyyətlər əldə olunmuşdur.

Hesab edirik ki, təhsil alan tələbələr üçün sistemli şəkildə və ən əsası vəsait formasında Azərbaycan və xarici bəstəkarların məhz nağara aləti üçün işlənmələrinin çap olunması vacibdir. Vəsaitə daxil olan bəstəkar əsərləri təhsil alan tələbələr üçün böyük köməyi olacağına ümidvarıq.

Yuxarıda göstərdiyimiz cəhətləri nəzərə alaraq Nağara ilə fortepiano üçün ansambl dərs vəsaiti hesab edirəm ki,uşaq incəsənət musiqi məktəbləri, kollecləri və ali tədris müəssisələrində təhsil alan öyrənənlər üçün lazımlı praktik, tədris-metodiki bir vəsaitdir.

Bu dərs vəsaiti ifaçı və pedaqoqların yetişməsində mühüm rol oynayaraq onların daha da kamilləşməsinə xidmət edəcəkdir.

**Təhmasib Hüseyn oğlu Məmmədov**
***ADMİU-nun “Xalq çalğı alətləri ifaçılığı” kafedrasının nağara ixtası üzrə baş müəllim***
**Cəfərli Hüseyn Ədalət oğlu**
***Şuşa Humanitar kollecin nağara müəllimi***

## Nağarada işlədilən şərti işarələr

### *Alt və üst əl*

Nağaranı çalan zaman aşağı tərəflə çaldığımız əl ***alt əl,***yuxarı tərəflə çaldığımız əl, yəni nağaranın üstündəki əl isə ***üst əl*** adlanır.

***Alt və üst əlin işarəsi;***

**0** -- alt əlin işarəsi

\+ -- üst əlın işarəsi

### Zərbə

Nağaranın alt və yaxud üst əl ilə çalınmasına *zərbə* deyilir. Zərbəni alt və üst əllə vurmaq olar.

### Bəm və zil zərbə

Nağaranın üzünün bir az orta tərəfinə alt və yaxud üst əl ilə (ovucun içi ilə) barmaqların birləşmiş vəziyyətdə vurulan zərbəyə ***bəm zərbə***, barmaqların açılı vəziyyətdə (həmin yerə) vurulan zərbəyə ***zil zərbə***, nağaranın üzünün kənarına (dərinin qıraqına) barmaqların ucu ilə vurulmasına ***çırtma əvəzi zərbə*** deyilir.

⊓ -- **bəm zərbə**
\> -- **zil zərbə**
^ -- **çırtma əvəzi zərbə**

**Qeyd.** Bəzi hallarda bəm və zil zərbəni yumşaq, ancaq barmaqların ucu ilə çalmaq lazım gəlir. Onda ⊓ və > zərbənin yanında ^ işarə-yəni barmaqların ucu ilə işarəsi yazılır ⊓^ bu işarə alt əl ilə bəm zərbəni öz yerinə ancaq barmaqların

ucu ilə yumşaq, (yəni yumşaq bəm zərbəni göstərir). >^ bu işarə alt əl ilə zil zərbəni öz yerinə ancaq barmaqların ucu ilə yumşaq, yəni yumşaq zil (çırtma səsinə oxşar) çalmağı göstərir.

Bəzi hallarda nağaranı kar səslə (yəni səsi bağlı,kəsik,boğuq halda) çalmaq tələb olunur. Bu zaman bir əl ilə (əsasən üst əl ilə) nağaranın kənarında dərini sıxıb, o biri əl ilə (alt əl ilə) istənilən zərbəni vurmaq lazımdır.

Kar səslə çalmağı notla yazmaq üçün istənilən zərbə dairəyə alınır.

**-- kar zil zərbə.(üst əl)**
**--- kar bəm zərbə. (alt əl)**
**---- kar bəm zərbə yumşaq barmaqların ucu ilə.(alt əl)**
**---- kar zil zərbə yumşaq barmaqların ucu ilə. (alt əl)**

1)  üst əlin yumşaq barmaqların ucu ilə dəriyə sıxıb saxlanılması və alt əlin çalınması. 2.  Bu işarə üst əlin yumşaq barmaqların ucu ilə dəriyə sıxıb saxlanılmasını göstərir.

**Qeyd.** Bir əllə ifa zamanı üst əlin yumşaq barmaqların ucu ilə dəriyə sıxıb saxlanılması ilə yanaşı, üst əlin ikinci barmağı dəriyə sıxıb, üçüncü, dördüncü, beşinci barmaqlar ilə ritmi ifa etmək olar. (Kar bəm səslə)

2)  burada 2 rəqəmi üst əlin ikinci barmağını dəriyə yumşaq sıxıb saxlanılmasını göstərir. 3)  ox işarəsi alt əlin yumşaq qıraqdan ortaya sürüşdürülməsini göstərir.

4)  ox işarəsi vurğu ilə alt,üst əlin termola ilə ortadan qıraqa sürüş-dürülməsini göstərir.(bəm,zil zərbə ilə)

## Çırtma.

Nağaranın zərbə ilə deyil, barmaqlar vasitəsi ilə çalınmasına (vurulmasına) çırtma deyilir.

**Çırtma işarəsi belədir;** V

Bəzi hallarda çırtma işarəsinin yanında hansı barmaqla vurulması da göstərilir.

**Məsələn;** V2 V3 V4 V5 

Çırtma əsasən alt əldə 2-ci barmaqla V○² üst əldə isə 3 və 4-cü barmaqla V+³ V+⁴ vurulur.

Bəzi hallarda bir zərbə və çırtmanı hər iki əl ilə birlikdə-qoşa çalmaq lazım gəlir.Bu zaman əsas notun yanında ,birdənəli forşlaq işarəsi birlikdə yazılır.

Məsələn:  Bu isə qoşa- birlikdə çalmağı göstərir.

Əsas notun üzərində olan işarə alt əli, forşlaqın üzərimdə olan işarə üst əli götərir.

**Məsələn;**

Qoşa əl ilə çalmağın nümunələri;

1. 
2. 
3. 
4. 

**Zərbə və çırtma**

*(Çirtma şapalaq)*

Xanədə forşlaq üzərində alt üst əl işarələri olmadıqda əsas notla birlikdə üst əl ilə barmaqların ucu ilə (çırtma) çalınır **.** Nağaranın bir əl ilə zərbə,o biri əl ilə çırtma vasitəsilə çalınmasına ***zərbə çırtma*** (***çırtma şapalaq***) deyilir. Zərbə çırtmada əsasən alt əl ilə zərbə, üst əl ilə çirtma çalınır.

**Məsələn;** 

**<u>İKİ ƏLLİ ÇIRTMA İLƏ FORŞLAQ</u>**

**Yazılır:** 

**ifa olunur:** 




**Çırtma əvəzi forşlaq**

Xanədə forşlaq üzərində alt üst əl işarələri olduqda,əsas notla birlikdə alt əl ilə barmaqların ucu ilə çırtma əvəzi qıraqdan ortaya sürüşdürməklə çalınır.Alt,üst əl işarəsi isə alt əl çırtma əvəzi, üst əl isə üst əl şapalağı ilə çalınır.(buna qoşa şapalaq deyilir)

**Yazılır:**







**ifa olunur:**




**yazılır**



**ifa olunur**



**<u>Qeyd;</u>** Əgər forşlağın üzərində əl işarələri olarsa forşlağın yazıldığı kimin çalınması məqsədəuyğundur.Əsas notun yanında forşlaq onaltılıq not kimi yazılır,ifa olunanda altmış dördlük not kimi çalınır.



## Üst əlin yumşaq zərbəsi

Elə ritmilərimiz var ki, orta,qıraq şapalaqla ritmi ifa etdikcə ritm fasilə ilə (qiriq-qiriq) səslənir və ritm eyniilə təkrar olunur. Bu qruplaşmada orta sürətdə "Cəngi" "Şələxo rəqsi" ritminin axırıda səkkizlik,çərək notda fasilə olunur. "Cəngi" "Şələxo rəqsi"ritmi fasilə ilə (qırıq-qırıq) ifa olunur,çünki orta şapalğınan ifa olunan ritmin axırında ox ilə göstərilən çərək not alt əlin zərbəsi ilə qurtarır və alt əlin qıraq şapalağı ilə ritm davam edilir.Onda alt əl şapalağı ilə qurtarıb,alt əl şapalağı ilə ritmi davam etdirəndə alt əl şapalağında istər istəməz fasilə yaranır. İki alt zərbə bir-birinin ardınca vurulur, ritm fasilə ilə (qırıq-qırıq) alınır.







Ritm mənimsənildikdən sonra sürətli çalınarsa istər-istəməz ritmin axırında



ox ilə göstərilən pauzanın yerində üst əlin yumşaq zərbəsindən istifadə olunacaq dır.Onda ritm alt əl ilə yox, üst əl ilə qurtaracaqdır.Onda ritm fasiləli (qırıq-qırıq) yox orta,qıraq şapalağınan fasiləsiz alınacadır. Notun üstündə olan ox

işarələri ilə göstərilən üst əl şapalağı bir ritm arasında rabitə yaradır və ritm fasiləsiz səslənir




